# Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyinin müvəqqəti ofisində Konsulluq Xidmətlərinin Göstərilməsi (7 iyul 2026-cı il tarixindən etibarən)

Yaxın Şərqdə vəziyyətin gərginləşməsi ilə əlaqədar olaraq, ziyarətçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi 2026-cı ilin mart ayından 3 iyul tarixinədək konsulluq qəbulunu müvəqqəti dayandırmışdır.

Bununla əlaqədar olaraq, **7 iyul 2026-cı il (çərşənbə axşamı)** tarixindən etibarən növbəti bildirişədək aşağıda göstərilən Səfirliyin müvəqqəti ofisində konsulluq xidmətləri (viza xidmətləri daxil olmaqla) bərpa ediləcəkdir.

**1. Qəbul ünvanı**

**Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyinin Müvəqqəti Ofisi**

- **Bina:** Globus Center (5-ci mərtəbə)
- **Ünvan:** Cəfər Cabbarlı küç. 609 , Yasamal rayonu, AZ1065, Bakı, Azərbaycan

**2. Qəbul saatları**

**(1) Konsulluq xidmətləri**

**Çərşənbə axşamından cümə gününədək** (Səfirliyin qeyri-iş günləri istisna olmaqla)

- 09:00–13:00
- 14:15–17:45

**(2) Viza xidmətləri**

**Çərşənbə axşamından cümə gününədək** (Səfirliyin qeyri-iş günləri istisna olmaqla)

- **Viza müraciətlərinin qəbulu:** 09:30–12:30
- **Vizaların təqdim edilməsi:** 14:00–17:00

**Vacib məlumat:**

7 iyul 2026-cı il tarixindən etibarən viza müraciəti zamanı pasportun əsli Səfirlik tərəfindən qəbul edilərək müvəqqəti saxlanılacaqdır. Pasport vizaların təqdim edilmə vaxtı **14:00–17:00** arasında viza pasporta yapışdırıldıqdan sonra sahibinə qaytarılacaqdır. İndiyədək tətbiq olunan, pasportun müraciətçi tərəfindən saxlanılması qaydası ləğv edilir. Xahiş edirik bunu nəzərə alasınız.

**3. Qəbul qaydası**

Bütün konsulluq müraciətləri **yalnız əvvəlcədən təyin olunmuş görüş** əsasında qəbul edilir.

Görüş təyin etmək üçün əvvəlcədən aşağıdakı elektron poçt ünvanına müraciət etməyiniz xahiş olunur.

**mail:** consular@bk.mofa.go.jp

**Qeyd:** Təcili konsulluq yardımı tələb edən Yaponiya vətəndaşları üçün əvvəlcədən görüş təyin edilməsi tələb olunmur.

**4. Binaya giriş qaydası**

İş saatları ərzində **Globus Center** binasının 1-ci mərtəbəsində yerləşən foyedə Səfirliyin mühafizə əməkdaşı növbətçilik edəcəkdir.

Binaya daxil olduqda ziyarətinizin məqsədini mühafizə əməkdaşına bildirin. O, sizi 5-ci mərtəbədə yerləşən müvəqqəti konsulluq ofisinə müşayiət edəcəkdir.

Binanı tərk edərkən də mühafizə əməkdaşı sizi 1-ci mərtəbədəki çıxışa qədər müşayiət edəcəkdir.

Şəxsi avtomobillə gələn ziyarətçilər binanın ödənişli yeraltı dayanacağından istifadə edə bilərlər (dayanacaq haqqı istifadəçi tərəfindən ödənilir).

Yeraltı dayanacaqdan istifadə etdiyiniz halda belə, avtomobili saxladıqdan sonra binanın xaricinə çıxmalı və binaya mütləq **1-ci mərtəbədəki əsas foyedən** daxil olmalısınız.

**5. Əlaqə**

**Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyinin Konsulluq Şöbəsi**

**mail:** consular@bk.mofa.go.jp

N

# Müvəqqəti ofisin xəritədə yerləşməsi

